# ALEKSANDR NEVSKİ ADINA RUS-PRAVOSLAV KİLSƏSİNİN 137 İLLİYİ QEYD EDİLİB

**Gəncədə yerləşən Aleksandr Nevski adına Rus-Pravoslav Kilsəsinin 137 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə Bakı və Azərbaycan yepiskopu Aleksiy Smirnov, QMİ-nin Qazılar Şurasının üzvü Hacı Tahir Abbasov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının və DQİDK-nin Gəncə-Daşkəsən Regional Bölməsinin rəsmiləri, eyni zamanda xristian dinindən olan şəhər sakinləri iştirak ediblər.**





Aleksandr Nevski adına Rus-Pravoslav Kilsəsinin 137 illiyi münasibətilə keçirilən mərasim zamanı kilsə zəngləri çalınıb, dini ayinlər icra olunub. Mərasim Bakı və Azərbaycan yepiskopu Aleksiy Smirnov tərəfindən icra edilib. Bakı və Azərbaycan yepiskopu Aleksiy Smirnov qeyd edib ki, burada yaşayan provaslav xristianlar Azərbaycan hökumətinin yürütdüyü xalqlar və dinlərarası siyasəti yüksək qiymətləndirir: "Bu yaxınlarda Moskva və bütün Rusiyanın Patriarxı Kirillin də dediyi kimi, Azərbaycan dünya üçün tolerantlıq, çoxkonfessiyalı, müxtəlif xalqların bir yerdə yaşayışı nümunəsidir".

Qeyd edək ki, Gəncədə yerləşən Aleksandr Nevski adına Rus-Pravoslav Kilsəsi 1887-ci ildə bizans üslubunda plint kərpicdən inşa edilib. Kilsə həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına tikilib. 44 il ibadət evi kimi fəaliyyət göstərdikdən sonra 1931-ci ildə Sovet hökuməti tərəfindən bağlanıb. 1935-38-ci illərdə muzey binası olan məbəd bir müddətdən sonra kafedral anbar kimi istifadə edilib. Bina 1946-cı ildə Rus Pravoslav Kilsəsinə qaytarılıb və yenidən qapılarını ibadət edənlərin üzünə açıb. Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsinin 7 zəngi var. Onlardan ən qədimi 1238-ci ilə aiddir. Tarixə şahidlik edən bu məbəd 2020-ci ildə ermənilərin Gəncəni terror atəşinə tutması nəticəsində zərər görüb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika.- 2024.- 14 sentyabr (№ 200).- S.11.